Böyük Britaniyanın “British Council” təşkilatı Təhsil Nazirliyi ilə birgə “Təbiət fənləri üzrə müəllimlər üçün təlimlər” layihəsi çərçivəsində 5 günlük təlim kursu keçirib.

Təlim kursunun əsas məqsədi təbiət fənlərini tədris edən müəllimlərin interaktiv tədris metodlarından istifadə üzrə bacarıq və peşəkar qabiliyyətlərinin inkişaf etdirilməsi, müvafiq təlim vasitələrinin öyrədilməsindən ibarət olub.

Təlimlərdə Azərbaycan Dövlət Pedaqoji Universiteti, Azərbaycan Müəllimlər İnstitutu və onun 11 filalından, Gəncə, Sumqayıt, Lənkəran Dövlət universitetlərindən, eləcə də Bakı, Gəncə, Sumqayıt şəhər, Lənkəran və Salyan rayon ümumtəhsil məktəblərindən seçilmiş kimya, biologiya və fizika fənlərini tədris edən müəllimlər, rayon təhsil şöbələri və Bakı Şəhəri üzrə Təhsil İdarəsinin metodistləri iştirak ediblər.

Layihə üzrə növbəti təlim kursu yeni dərs ilində keçiriləcək.